*Western Caspian University*
*Scientific Bulletin № 2, 2024*
*(Humanities sciences series)*

*Western Caspian University*
*Scientific Bulletin № 2, 2024*
*(Humanities sciences series)*

**Qəmər Məhəmməd qızı HƏSƏNOVA**
*Qərbi Kaspi Universiteti, Dizayn kafedrasının magistrantı*
E-mail: hesenovaqemer125@gmail.com

# İSMAYİLLİYƏ BİNASININ MEMARLIQ TARİXİ

**Xülasə**

Ploşkonun ən görkəmli əsərlərindən biri də 1912-ci ildə Ağa Musa Nağıyevin sifarişi ilə inşasına başlanan İsmayilliyə binasıdır. Zəngin eksteryeri ilə ilk görüşdən insanın diqqətini cəlb edən İsmayilliyə binası insanda yüksək hisslər yaradır. Venetsiya Qotikasında tikilmiş bu bina həmçinin memarın nə qədər incə zövqlə çalışdığını bizə göstərir. Hətta Venesiyadakı bir çox görkəmli bina ilə müqayisə olunan İsmayilliyə binası sözsüz ki, Ploşkonun ən yaxşı işlərindən biri idi. Tikildiyi küçəyə gözəllik qatması ilə yanaşı fasadının dizaynı ətrafındakı binalardan fərqlənir. Öz interyeri ilə də həm o dövrün, həm də günümüzün zövqünü oxşayır. İnteryerində istifadə olunan elementlərin eleqantlığı bu binanın daxili məkanının da hər dövrdə xoşa gələn olduğunu bizlərə göstərir.

Məqalənin məqsədi "İsmayilliyə" binasının tarixinin və memarlığını açıqlamaqdır.

***Açar sözləri:*** *İsmayilliyə binası, memarlıq abidəsi, dizayn, interyer dizaynı, ekstryer dizayn*

**DOİ:** 10.54414/QZAO5519

**Giriş**

XIX əsr Azərbaycanında tikilmiş binalar əvvəlki dövr memarlıqları ilə sıx əlaqədə olsa da XX əsrin ortalarından etibarən Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra yeni meyillər özünü göstərmişdir. Bakının əvvəlki şəhər planlamasına baxsaq görərik ki,qala divarlarından kənarda qalan ərazi əkin sahələri olmuşdur. Burada müxtəlif növ bitkilər becərilmişdir. Lakin artıq 1810-cu ildən etibarən qala olan kənar ərazilərdə yeni plan əsasında tikilməyə başlamır. Bunun üçün başqa ölkələrdən və Azərbaycandan bir çox memarlar bu işə cəlb olunur. Bu memarlardan biri Azərbaycanın bir çox memarlıq abidələrinin müəllifi İosif Ploşko idi. O İ. Qaslavskidən sonra öz istedadı və memarlıqda olan məharəti ilə dövrün memarlarından seçilirdi. 1866-1931-ci illər arasında yaşamış və Bakıya gözəl memarlıq abidələri bəxş etmiş İ. Ploşko öz zövqü və bacarığı ilə insanları heyran qoyurdu. O orta məktəbi bitirdikdən sonra Rusiyaya köçür. Sənədlərini İmperator Bədaye Akademiyasına verir. Bir il burada oxuyur. Ancaq akademiyanın proqramı onu təmin etmədiyi üçün təhsilini yarımçıq qoyur. Sonra Sankt-Peterburq Mülki Mühəndislər İnstitutuna qəbul olunur. 1895-ci ildə təhsilini başa vurub Kiyev şəhərində ixtisası üzrə iki il işləyir. Bakının bir çox yerində gözəl və görkəmi ilə seçilən tikililərin memarı olan İosif Ploşko 1931-ci ildə dünyasını dəyişmişdir.



**Əsas hissə:** İsmayilliyə binasının sifarişçisi dövrün neft milyonçularından Ağa Musa Nağıyev 1849-cu ildə çox kasıb bir ailədə dünyaya göz açmışdır. Dövrün öndə gələn milyonçularından olan Ağa Musa Nağıyev, qazdığı su quyusundan neft fontan vurması ilə zəngin olmuşdur. Çox qısa müddət ərzində adi fəhlədən neft milyonçusuna çevrilən Ağa Musa Nağıyev başqa neft yataqlarını da satın alır. O Bakı şəhərində olduqca

göstərişli binalar tikdirmişdir. Tikdirdiyi binaların sayı 98-ə çatır. Bunlardan biri də öz görünüşü ilə şəhərin incisinə çevrilən İsmayilliyə binası idi. Tikdirdiyi yaşayış binalarından əlavə,4 xəstəxana, məktəb və şollar suyunun çəkilməsinə küllü miqdarda vəsait ayırmışdır. Həyatının son dövrlərinə yaxın onun sərvəti Hacı Zeynalabdin Tağıyevin sərvətindən çox idi. 1871-ci ildə Umma Kərbəlayi Cəfər qızı ilə evlənən Ağa Musa Nağıyevin 2 övladı dünyaya gəlir. 1 qız və 1 oğlan övladı. 1879-cu ildə oğlan övladı İsmayıl,1881-ci ildə isə qız övladı Ümül Banu dünyaya gəlib. Qızını daha sonralar Şəmsi Əsədullayevin oğlu Mirzə ilə evləndirir. Oğlu İsmayıl isə gənc yaşda dünyasını dəyişir. Deyilənə görə çox ağıllı, mehriban və istedadlı olan İsmayılın incəsənətə xüsusi meyli varmış. Ancaq təəssüf ki, o 1902-ci ildə 23 yaşında vərəm xəstəliyindən dünyasını dəyişir. Ağa Musa Nağıyev onu həkimlərə müayinə etdirsə də , müalicəsi üçün ona yalnız İsveçrəni məsləhət görürlər. İlk başda onu İsveçrəyə aparmaq istəməyən Ağa Musa Nağıyev, sonralar İsmayılın vəziyyətinin pisləşdiyini görür və onu İsveçrəyə aparır. Təəssüf ki,burda olunan müalicə bir müddətlik onun vəziyyətini yaxşılaşdırsa da sonra yenə vəziyyəti pisləşir və 1902-ci il martın 26-sında vəfat edir. Vəfat etmiş oğlunun yasını tutan ata Ağa Musa Nağıyev onun xarirəsinə saray tikdirmək qərarına gəlir. Bununla da Azərbaycanın və Bakı şəhərinin memarlıq incilərindən sayılan İsmayilliyə sarayının bünövrəsi qoyulur. Binanın münövrəsi İsmayilın ölümündən sonra 1908-ci ildə qoyulur. Bina 1908-1913-cü illər arasında İosif Ploşkonun lahiyəsi əsasında 5 ilə tikilir. Böyük pullar xərclənərək ərsəyə gələn bu bina. Bundan 6 il sonra,1919-cu ilin mart ayında Ağa Musa Nağıyev dünyasını dəyişir. O bir çox xeyriyyə işi, görkəmli tikililər və böyük bir miras arxasında qoyub.

İosif Ploşkonun ən görkəmli əsərlərindən biri də 1908-ci ildə Ağa Musa Nağıyevin sifarişi ilə inşasına başlanan İsmayilliyə binasıdır. Zəngin eksteryeri ilə ilk görüşdən insanın diqqətini cəlb edən İsmayilliyə binası insanda yüksək hisslər yaradır. Venetsiya Qotikasında tikilmiş bu bina həmçinin memarın nə qədər incə zövqlə çalışdığını bizə göstərir. Hətta Venesiyadakı bir çox görkəmli bina ilə müqayisə olunan İsmayilliyə binası sözsüz ki, Ploşkonun ən yaxşı işlərindən biri idi. Tikildiyi küçəyə gözəllik qatması ilə yanaşı fasadının dizaynı ətrafındakı binalardan fərqlənir. Öz interyeri ilə də həm o dövrün, həm də günümüzün zövqünü oxşayır. İnteryerində istifadə olunan elementlərin eleqantlığı bu binanın daxili məkanının da hər dövrdə xoşa gələn olduğunu bizlərə göstərir. Avropa klassikasına daha yaxın olan binanın interyeri memarlıq həllində və diqqəti cəlb edən göstərişli, bir o qədər də biçimli korinf sütunlarda özünü göstərir. Proporsiyasındakı zərif tərz baxımından Roma imperiyası dövrünün incəsənətini əks etdirir. Bina keçmiş Nikolayev küçəsində yerləşir. İki mərtəbədən ibarət olan bu binanın yaşayış binası olmasına baxmayaraq ətraf mühitlə də olduqca ahəngli görünür. Bina istər öz fasadının təkrarolunmaz görünüşü, istərsə də interyerinin nəcibliyi ilə insanı incəsənətə və memarlığa heyran qoyur. İnteryerdə istifadə olunan sütunlar,divarda asılmış gözəl incəsənət nümunəsi rəsmlər hətta tavanın ustalıqla işlənmiş görünüşü memar olaraq Ploşkonun nə qədər incə zövqlərə malik olduğunu göstərir .İsmayilliyə binasının digər bir üstün tərəfi o dövr üçün nadir görülən bir şəkildə içərisində salon olmasıdır. Binanın ikinci mərtəbəsində yerləşən salon teatr tamaşalarını göstərmək üçün ya da müxtəlif yığıncaqlar keçirmək üçün istifadə olunurdu. Salonda həm panterlərdən həm də yarım dairə şəklində lojalardan istifadə olunmuşdur. İstifadə olunan bu bölgü interyerdə gələn qonaqların tamaşanı izləməsini ya da hər hansı bir yığınacaqda iştirak edərkən rahatlığına imkan yaradırdı. Binanın daxili tərtibatı olduqca zövq oxşayan detalları görmək mümkündür. Həmçinin binanın fasadında istifadə edilmiş elementlər onun həm zəngin estetik anlayışa həm də bir o qədər də həmin dövrə görə zəngin bədii keyfiyyətlərə malik olduğunu göstərir. Ağa Musa Nağıyevin erkən vəfat etmiş oğlunun xatirəsinə inşa edilmiş bu bina hələ də şəhərin əhəmiyyətli abidələrindən biridir. Ağa Musa Nağıyevin oğlu vərəm xəstəliyindən vəfat etdikdən sonra Hacı Zeynalabdin Tağıyevin məsləhəti ilə binanın tikintisinə başlanmışdır. Hacı Zeynalabdin Tağıyev binanın inşasının bitməsinə həm maddi həm də mənəvi dəstək olmuşdur. Əvvəllər boş olan bu ərazi

Western Caspian University
Scientific Bulletin № 2, 2024
(Humanities sciences series)

daha sonra binanın tikilməsi ilə dolmuşdur. Ərazi əvvəllər çox mübahisəli mövzulara səbəb olmuşdur. Azərbaycanda yaşayan bəzi müsəlmanlar ərazidə məscid tikilməsinin tərəfdarı idilər. Ancaq şəhər Dumasının icazə verməməsi nəticəsində mübahisələr yatışdırıldı. İcazə verilməməsinin səbəblərindən biri də yaxınlıqda Aleksandr Nevski kilsəsinin yerləşməsi idi. Bu kilsə cənubi Qafqazın ən böyük kilsəsi idi. Bu səbəbdən ötrü də Rus hökuməti ərazidə məscid tikilməsi barədə icazə verilməsini yubadırdı. Nəticədə ərazidə olduqca görkəmli İsmayilliyə binasının tikintisinə başlandı. Hacı Zeynalabdin Tağıyevin səyi və memar Ploşkonun lahiyəsi üzrə XIX - XX əsr Azərbaycan memarlığında yeni və gözəl incilərdən biri olan İsmayilliyə sarayı inşası başlandı. Bina Azərbaycanda inşa edilmiş ilk qotika tərzində bina olmasa da gözəl nümunələrindən biridir. Ploşko qotika üslubundan istifadə edərkən daha ağır və sərt nüanslardan çəkinmiş, daha dekorativ elementlərlə binanın xarici fasadını yüngülləşdirimişdir. Bu isə binanı göstərişli və baxımlı abidəyə çevirməyə kömək etmişdir. Memarlıq abidəsi qotika tərzdə olsa da klassik memarlıq elementlərini də daşıyır. İsmayilliyə binasında hiss olunan Venesiya qotikası binanın fasadındakı oxvari tağlarda özünü göstərir. İtalyan tərzi və müsəlman formaları binanın estetik tərəfindən əvəzedilməz görkəmini tamamlayır. Ploşko İsmayilliyə binasının layihəsini verərkən, qotikanın əvəz olunmaz və göstərişli nüanslarından ustalıqla istifadə etmişdir. Binanın pəncərə hissəsində olduqca göz oxşayan detallardan istifadə olunmuşdur. Bundan əlavə girişdə də eyni incəlik hiss olunur. İlk baxışdan insanı valeh edən bu binanın estetik cəhətdən göz oxşayan detalları İstiqlaliyyət küçəsindəki digər binalardan özünü fərqləndirir. Bina iki mərtəbədən ibarətdir. Fasad hissədəki dairəvi formalar, içərisindəki naxışlarla birlikdə binaya əvəzolunmaz forma verir. Ön hissəsindəki pəncərə qırağındakı sütunlar binanın göstərişli qotik tərzi ilə uyğunluq təşkil edir. Künc hissələrə gəldikcə , xüsusi ilə vurğulanmış detallar memarın zövqünü və daş ustalarının bu sahədə məharətini göstərir. Burda istifadə olunan detallar, estetik baxımdan xoş görünməsi ilə yanaşı binaya daha baxımlı və dərin bir görünüş vermişdir. Olduqca qarışıq və detallı görünsə də, özünə məxsus harmoniyaya sahibdir. Binanın xarici görünüşündə sütunlarda və plyastrlarda istər qotik istərsə də islami detallardan istifadə olunmuşdur. İnsan binaya baxarkən hansı detalının daha yaxşı olduğuna qərar verə bilmir. Olduqca yaxşı qorunub saxlanılan bina artıq 100 ili keçmiş tarixi ilə insanları valeh edir. İsmayilliyə sarayının eksteryeri qədər, interyeri də olduqca zövqlə bəzədilmişdir. İnteryerin valeh edici görüntüsü olduqca zərif detallarla fərqlənir. Xüsusilə tamaşalar, qonaqların yaxşı vaxt keçirməsi üçün nəzərdə tutulan otaqda ilk baxışdan nəzərə çarpan interyer elementləri zərifliyi və bir o qədər də göstərişi ilə diqqət çəkirdi. Otağın zövqlə bəzədilmiş tavanı və göstərişli çılçıraqları bizə memarın bu binanın interyerinə nə qədər zərif duyğularla yanaşdığını göstərir. Hündür pəncərəli olan olduqca işıqlı bu salon divarlarındakı elementləri ilə fasad görünüşünün arasında vəhdət təşkil edir. İstər interyerdə istifadə olunan heykəllər, istərsə də divardan asılan rəsmlərdə bunu hiss etmək mümkündür. Birinci mərtəbədən daxil olarkən bizi böyük foe, iki tərəfindən də üst mərtəbəyə qalxa biləcəyimiz böyük pilləkənlər bizi qarşılayır. Bu pilləkənlə yanaşı sarayın həyatinə də çıxa biləcəyimiz pilləkənlər bu binada yerləşir. Bir neçə otağın da yerləşdiyi bu mərtəbə daha ilk daxil olarkən belə binanın göstərişini bizə hiss etdirir.

Bir çox tarixi hadisə görən İsmayilliyə binası inşa edildiyi gündən bu günədək müxtəlif fəlakətlərə də şahidlik etmişdir. Onun ən faciəvi günləri sözsüz ki 1918-ci ilin mart hadisələri olmuşdur. Bu zaman ermənilər bəzi binalarla birlikdə şəhərin memarlıq incilərindən sayılan İsmayilliyə binasını da hədəf almışlar. Bu böhranlı zamanda insanlar şəhərin əhalisi ilə birlikdə tarixi abidələrimizi və görkəmli binalarımızı da qətl etmək istəyirdilər. İsmayilliyə binasının yandırılması bu hədəflərdən biri idi. Yalnız və boş qalmış bir zamanın görkəmli insanlarını qonaq etmiş önəmli hadisələrə şahidlik etmiş bu binanın yandırılması həm Azərbaycan tarixi memarlığına vurulan bir zərbə, həm də o zamanın dövlət quruluşuna endirilmiş yetəri qədər faciəvi bir addım idi. Yandırılmasından əlavə bina qarət edilmiş həm arxivi həm də özü yandırılmışdır.

Bunun nəticəsində binaya zərər gəlmiş , binanın interyeri alovun hərarətindən bütün o görkəmini itirərək tələf olmuşdur. Ancaq İsmayilliyə binası bütün bunlara dözüm gətirdi. Bakı azad olundu və A.X.C yaradıldı. Yaradılmış fövqəladə təxribat komissiyası binanın restovrasiya ilə bağlı işlər görməyə başladı. Binanın bu hala gətirilməsi bir başa Azərbaycan xalqının mədəni və mənəvi irsinə vurulmuş zərbə idi.

**Nəticə**

Birinci Dünya müharibəsi illərində binada yaralılar üçün xəstəxana yerləşmişdir. Nəhayət, 1923-cü ildə memar Aleksandr Dubovun rəhbərliyi ilə bina bərpa edilib. Lakin bərpa prosesində binanın fasadında həkk olunan sözlər pozulub.

Sonralar İsmailiyyə binasından müxtəlif məqsədlər üçün istifadə edilib. Məsələn, müxtəlif illərdə burada Azərbaycanın tədqiq olunması cəmiyyəti, Arxeologiya komissiyası, Əlyazmalar fondu və digər təşkilatlar yerləşib. Bu gün isə bu gözəl bina Azərbaycan Milli Elmlər Akademiyasına verilib ki, bu da vaxtilə sarayın fasadına həkk olunmuş müdrik kəlamlarla tam səsləşir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Şamil Fətullayev- Fiqarov- Memar İ.K. Ploşko "İsmayilliyə"nin müəllifi- Bakı: [Şərq-Qərb], 2013.
2. Şamil Fətullayev- Fiqarov- Bakının Memarlıq Ensiklopediyası- Bakı: [Şərq-Qərb], 2013.
3. 3.Kaspi.az Qəzeti- 16.09.2010
4. Erkən Kapitalizm Dörünün Memarlığı-(XIX-XX əsrin əvvəlləri)
5. Polyakların Azərbaycanda Fəaliyyəti- Nəsiman Yaqublu

**Gamar Muhammed HASANOVA**
Western Caspian University, graduate student of the Department of Design
**E-mail:** hesenovaqemer125@gmail.com

**ARCHİTECTURAL HİSTORY OF THE ISMAİLLİYA BUİLDİNG**

**Summary:**

One of the most prominent works of Ploshko is the Ismayilliya building, which was started in 1912 under the order of Aga Musa Nagiyev. Attracting people's attention from the first meeting with its rich exterior, Ismayilliya building creates high feelings in a person. Built in the Venetian Gothic style, this building also shows us the exquisite taste of the architect. Even compared to many notable buildings in Venice, the Ismaili building was undoubtedly one of Ploshko's best works. In addition to adding beauty to the street where it was built, the design of its facade differs from the surrounding buildings. With its interior, it has the taste of both that time and today. The elegance of the elements used in its interior shows us that the interior space of this building is pleasant in every era.

In the presented article, the author noted the historical significance of the building in architecture. The purpose of the article is to explain the history and architecture of the "Ismaililya" building.

**Keywords:** *Ismayillia building, architectural monument, design, interior design, exterior design*

**Гамар Мухаммед кызы ГАСАНОВА**
Западно-Каспийский Университет, аспирант кафедры дизайна

## АРХИТЕКТУРНАЯ ИСТОРИЯ ЗДАНИЯ ИСМАИЛИИ

**Резюме**

Одним из самых выдающихся произведений Плошко является здание Исмаиллии, строительство которого было начато в 1912 году по приказу Аги Мусы Нагиева. Здание Исмаиллия своим богатым внешним видом, привлекающее внимание людей с первой встречи, вызывает в человеке высокие чувства. Построенное в стиле венецианской готики, это здание также демонстрирует нам изысканный вкус архитектора. Даже по сравнению со многими примечательными зданиями Венеции здание исмаилитов, несомненно, было одним из лучших произведений Плошко. Помимо красоты улицы, на которой он построен, дизайн его фасада отличается от окружающих зданий. Своим интерьером он передает вкус как того времени, так и современности. Элегантность элементов, использованных в его интерьере, показывает, что внутреннее пространство этого здания приятно в любую эпоху.

**Ключевые слова**: *Здание Исмаиллы, памятник архитектуры, дизайн, дизайн интерьера, дизайн экстерьера*

**Daxil olub:** 02.10.2024